# İŞĞALDAN AZAD OLUNMUŞ BÖLGƏLƏRDƏ EKOLOJİ VƏZİYYƏTİN BƏRPASI İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİ

**Günel Aslanlı**

*AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Bakı*
*g.aslanli85@gmail.com*

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın müddətdə Azərbaycanın işğal altında olan bölgələri böyük ekoloji cinayətlərə məruz qalmış, eyni zamanda təbii sərvətlərinə külli miqdarda ziyan vurulmuşdur. İşğal altında qalan torpaqlarımızda qəsdən ətraf mühit çirkləndirilmiş, əsrarəngiz fauna-florası məhv edilmiş, təbii ehtiyatlar acgözlüklə talan edilmiş, su ehtiyatlarına, xüsusən çaylarımıza zəhərli maddələr və məişət tullantıları axıdılaraq zərərli hala salınmış, ümumilikdə ekosistem misli görünməmiş ekoloji terrorla üzbəüz qalmışdır.

Ümumiyyətlə, bu bir həqiqətdir ki, müharibələr insanların həyat və fəaliyyətinə, ölkə və regionlarının inkişafına böyük zərbə vurur. Azərbaycanın ayrılmaz parçası olan Qarabağımızın ərazisi çox mühüm əhəmiyyətə malik ərazidir. Beləki, faydalı resurslara, tükənməyən təbii sərvətlərə, münbit torpaqlara, səmərəli iqlim şəraitinə malik olan Qarabağ torpaqları təcavüzkar erməni işğalçıları tərəfindən 30 il ərzində

vəhşicəsinə mənimsənilmiş, oradakı ekosisteminin məhvinə səbəb olmuşlar. İşğalın vurduğu ziyanlar təkcə həmin ərazilər üçün deyil, bütövlükdə Azərbaycan təbiəti və təsərrüfatına təsirsiz ötüşməmişdir. Erməni təcavüzkarlığı nəticəsində respublikamızda pozulmuş ekoloji tarazlıq hallarını sadalamaq yerinə düşərdi. Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonasında ekoloji təcavüzkarlıq bir çox həlli çətin problemlər yaratmışdır:

1. Hər iki iqtisadi zonada meşələrin qırılması nəticəsində - torpaq eroziyasının (yuyulmasının) sürətlənməsinə; yamacların çılpaqlaşması yarğan-qobu şəbəkəsinin yaranmasına; qrunt (yeraltısular) sularının aşağı düşməsinə; kiçik çayların və bulaqların qurumasına; bütövlükdə məhsuldar qara, qəhvəyi, qonur meşə torpaqlarının sıradan çıxmasına səbəb olmuşdur.
2. Meşələrin yandırılması nəticəsində həmin ərazilərin a) qiymətli relikt və endemik palıd, fıstıq, göyrüş, cökə, şam kimi ağacların məhvi ilə və b) atmosferdə karbon oksid $CO_2$, freon qazlarının artmasına, c) ozon qatının nazikləşməsinə, d) meşəaltı torpaq örtüyü ilə bərabər bitki və heyvanlar aləminin məhvinə də gətirib çıxarmışdır.
3. Həmin ərazilərin çay və göllərindən səmərəsiz istifadə nəticəsində zonanın ən böyük – Tərtər, Həkəri, Bərgüşad çayları ilə yanaşı kiçik çayların da ziyanlı tullantılarla çirklənməsi yeganə hal deyil; Yay mövsümündə Tərtər çayının Aran Qarabağa, Kür-Araz ovalığına çatmaması (qabağının kəsilməsi) respublikamızda əkinçilikdə böyük problemlər, su çatışmazlığına gətirib çıxarmışdır; Qış mövsümündə Tərtər çayının qəsdən boşluq ərazilərə buraxılması, mənsəbə çatmasına maneçilik törədilməsi isə ərazisinin 40 faizinin okean səviyyəsindən aşağı olan Kür-Araz ovalığında alçaq dağətəyi zonalarında duzlu qrunt sularının səthə qalxmasına, torpaqların şoranlaşmasına və bataqlıqlaşmasına səbəb olmuşdur.
4. Şərqi Zəngəzur iqtisadi zonasının iri çayları olan Oxçuçay, Bəsitçay Qafan mis-molibden tullantıları ilə çirklənməsi, eyni zamanda Azərbaycanın əsas aorta çaylarından olan Araz və Kürün də çirklənməsi təkcə əkinlərimizin deyil, həm də içməli şirin suyun və Xəzərin çirklənməsinə təsiri böyükdür. Dünyanın ən mühüm qlobal problemlərindən olan şirin su qıtlığı, yarıdan çox hissəsi yarımsəhra və quruçöl olan ölkəmizdə həlli çətin problemlər yaratmışdı.
5. Tərtər SES-dən alınan enerjinin yalnız erməni qəsbkarlarının təsərrüfatlarına sərf edilməsi, respublikamızda enerji çatışmazlığına gətirib çıxarmışdır.
6. Şərqi Zəngəzur iqtisadi zonasının respublikamızın ən böyük otlaq və biçənəyi olması hamıya yaxşı məlumdur. Bu ərazilərdən 30 il ərzində istifadə edə bilməməyimiz qoyunçuluğa, heyvandarlığa böyük ziyan vurmuş, vaxtilə arıçılıq və bal istehsalında birinci yerdə duran bu zona əsas ixtisaslaşma istiqamətindən (heyvandarlıq və arıçılıq) məhrum olmuşdur.
7. Həmçinin bu zonanın fauna və florasına böyük ziyan dəymiş, Zəngilan rayonunda qiymətli endemik bitki olan nadir Şərq Çinarı meşəsi demək olar ki, bütövlükdə məhv edilmişdir.
8. Faydalı qazıntı yataqlarından Söyüdlü, Zod, Qızılbulaq (Kəlbəcər) və Vejnəli (Zəngilan) qızıl yataqları, Göydərə (Kəlbəcər), İpək (Laçın) xromit yataqları, Levçay, Ağyataq (Kəlbəcər), Narzanlı, Gilgəzçay (Laçın) civə yataqları kimi ehtiyatları səmərəsiz istifadə edərək mənimsənmişlər.
9. Həm Qarabağ, həm Şərqi Zəngəzur iqtisadi zonasında ağır texnikanın hərəkəti məhsuldar torpaq ehtiyatını çox zədələmişdir. İqtisadi nöqteyi-nəzərdən kənd təsərrüfatı torpaqlarının kimyəvi maddələrlə çirklənməsi gələcəkdə ciddi probləmlərə yol aça bilər.
10. Bundan əlavə basdırılmış yüzlərcə minaların partlaması isə radioaktiv çirklənməyə gətirib çıxarır. Qeyd edim ki, işğal altında olarkən torpaqlarımızın 12 %-nə mina basdırılmışdır. Yeri gəlmişkən, müharibənin gedişi zamanı həlak olanların cəsədləri vaxtında təxliyə olunmadıqda orqanizmdən ayrılan zəhər, ptomain birləşmələri adlanan birləşmələr, vərəm bakteriyası və digər xəstəliklərin daşıyıcıları torpağa qarışır, daha sonra torpaqdan süzülərək qrunt sularına keçir, qrunt suları vasitəsilə daşınaraq yayılır və problemi miqyaslandırır.
11. Digər problemlərdən biri də orta və alçaq dağlıqdan ibarət olan Qarabağ, orta və yüksək dağlıqdan ibarət olan Şərqi Zəngəzurda meşələrin qırılması nəticəsində, iqlimin quraqlaşması həm də dağətəyi zonalarda dəmyə əkinçiliyə böyük ziyan vurmuşdur.
12. Mübarizə həm də havanın keyfiyyətinə təsir edir. Bunlara meşə yanğınları, hərbi texnika məhv edildikdən sonra atmosferə atılan maddələr, silah-sürsat anbarlarının və sənaye obyektlərinin dağıdılması nəticəsində atmosferə atılan tullantıları qeyd edə bilərik. Bütün bu hava çirkləndiricilər arasında karbohidrogenlər, azot dioksidi, bir sıra müxtəlif maddələr, hidrogen sulfid, formaldehidlər var ki, bu isə həm də onkoloji kokteylin resepti deməkdir.

Müharibənin məntiqi nəticəsi olaraq ekoloji deqradasiya güclənir və gələcəkdə qlobal ətraf mühitə təsir göstərə biləcək böyük yeni problemlər yaranır.

Ətraf mühitin çirklənməsi, ekoloji terror, ekosistemlərin məhv edilməsi, bu və ya bir çox digər hallar post müharibə dövründə Azərbaycan ekologiyasının bərpasının təmin olunması dövlət siyasəti üçün reallığa çevrilmişdir. Bu mənada Ekoloji təhlükəsizliyin təmin olunması Azərbaycan dövlətinin və müvafiq strukturların qarşısında bir çox cari və strateji vəzifələrin həlli məsələsini qoymuşdur.

İşğaldan azad olunmuş ərazilərimizdə yuxarıda sadalağım məsələrin həlli istiqamətində ilk olaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2020-ci il 29 oktyabr tarixli "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanı ilə ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlanılmışdır.

Bundan əlavə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı", "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Dövlət Proqramı"nın və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın layihələri hazırlanır. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli Sərəncamı ilə "İşğaldan azad edilmiş ərazilər daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi ilə əlaqədar Komissiya" yaradılmışdır.

Cənab Prezident İlham Əliyevin tapşırığı və mütəmadi nəzarəti altında Şərqi Zəngəzur və Qarabağ bölgəsi davamlı inkişaf etdirilərək ölkə həyatına reinteqrasiyası tam sürətlə davam etdirilir.